**Layihə təklifinin forması**

**Qeyd:** Ekspertizaya yalnız layihə təklifi təqdim olunur**.**

**1. Layihənin adı**
Layihənin adını aydın və dəqiq yazın.

**2. Problemin qoyuluşu (1-2 səhifə)**
Layihədə həllinə çalışmaq istədiyiniz problemi (məsələni) təsvir edin. Problemin Azərbaycan Respublikasında təhsil sahəsinin inkişafı üçün aktual olduğunu əsaslandırın.

**3. Layihənin məqsəd və vəzifələri (0,5–1 səhifə)**
Layihənin məqsədini 1 cümlədə ifadə edin. Qarşıya qoyulmuş vəzifələrin müəyyən zaman çərçivəsində reallığa uyğun olaraq spesifik, ölçülə bilən olmasına diqqət yetirin.

**4. Görüləcək işlər (3 – 5 səhifə)**
Həyata keçiriləcək fəaliyyət növlərinin qısa təsvirini, icra müddətini ardıcıllıqla qeyd edin. Hər bir fəaliyyət növü üzrə əldə ediləcək nəticələri konkret olaraq təsvir edin.

**5. Layihənin icra müddəti (0,5 səhifə)**
Layihənin əhatə etdiyi müddəti qeyd edin.
Layihənin icra planı ayrıca cədvəl şəklində tərtib edilərək, layihəyə əlavə olunmalıdır.

**6. Gözlənilən nəticələr (1–2 səhifə)**
Layihənin həyata keçirilməsinin sonunda əldə ediləcək nəticələri təsvir edin. Layihə təsvir edilən problemin həllinə necə təsir edəcəyi barədə məlumat verin.

**7. Layihə çərçivəsində qurulacaq əməkdaşlıq (0,5–1 səhifə)**
Layihənin icrası zamanı digər ümumi təhsil müəssisələri, dövlət qurumları, QHT-lər, şirkətlər və beynəlxalq təşkilatlarla qurulacaq əməkdaşlıqların hansı formada olacağını təsvir edin.

**8. Layihənin monitorinqi və davamlılığı (1-2 səhifə)**
Layihənin icrası və nəticələri haqqında ictimaiyyətin məlumatlandırılması və informasiya əldə edilməsi yollarını göstərin. Layihənin icrası başa çatdıqdan sonra onun davamlılığının təmin olunması istiqamətində görəcəyiniz işləri qeyd edin.

**9. Layihənin qiymətləndirilməsi və hesabatlılığı (1-2 səhifə)**
Layihənin qiymətləndirmə meyarlarını və hesabatlılıq formalarını qeyd edin. Nail olunmuş dəyişikliyin hansı meyarlar əsasında müəyyənləşdiriləcəyini izah edin

**10. Layihənin büdcəsi**
Layihənin büdcəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi formaya uyğun tərtib olunmalı və layihəyə əlavə edilməlidir (Əlavə 5).